“Gigabayt uğrunda döyüş” viktorinasında iştirak Qaydaları

1. Ümumi müddəalar.

1.1. Bu Qaydalar “Gigabayt uğrunda döyüş” viktorinasında iştirak və həmin viktorinanın keçirilmə şərtlərini tənzimləyir.
1.2. Viktorina Azərbaycan Respublikasının ərazisində və Təşkilatçının “Azercell” mobil tətbiqində/ Azercellim tətbiqində keçirilir.
1.3. “Gigabayt uğrunda döyüş” Viktorinası (bundan sonra – “Viktorina”) – iştirakçıların bilik, məntiq və çevik cavabvermə bacarıqlarını sınayan, Sınaq Oyunu, Əsas Oyun və Əlavə Oyunlardan ibarət, sual-cavab formatında keçirilən interaktiv intellektual oyundur.

2. Təşkilatçı.

2.1. Viktorinanın təşkilatçısı “Azercell Telekom” Məhdud Məsuliyyətli Cəmiyyətidir (bundan sonra Təşkilatçı).
2.2. Təşkilatçı haqqında məlumatlar:
Ünvan: AZ1122, Bakı şəh, Tbilisi pr., 149.
Tel.: (012) 496 70 07
Faks: (012) 430 05 68
E-poçt: office@azercell.com

3. Viktorinanın müddətləri.

3.1. Viktorina 01.09.2026 – 31.12.2026-cı il tarixlərini əhatə etməklə 122 gün davam edəcək.

4. Viktorina iştirakçıları.

4.1. Müsabiqədə Təşkilatçının mobil telefon nömrələrinin abunəçilərindən Azercell tətbiqində qeydiyyatı olan 18 yaşına çatmış tam fəaliyyət qabiliyyətli Azərbaycan Respublikasının ərazisində daimi yaşayan fiziki şəxslər iştirak edə bilər.
4.2. 16 yaşı tamam olmuş yetkinlik yaşına çatmamış şəxslər Viktorinada yalnız valideynlərinin (qanuni təmsilçilərinin) yazılı\rəsmi razılığı ilə iştirak edə bilərlər.
4.3. Təşkilatçının işçiləri, onların ailə üzvləri, Viktorinanın keçirilməsinə cəlb edilmiş idarə, müəssisə və təşkilatlar, onların işçiləri və ailə üzvləri viktorinada iştirak edə bilməzlər.

5. Viktorina keçirilməsi.

5.1. Viktorinada iştirak etmək üçün Abunəçi Təşkilatçının rəsmi internet səhifəsindəki, bu Qaydalar ilə tanış olmalı və xidmətə abunəliyi aktivləşdirməlidir.
5.2. Abunəçi xidməti aktivləşdirdikdən sonra günlük istifadə müddəti ərzində 1 Əsas Oyunda iştirak imkanı təqdim olunur. Müddət başa çatdıqda, abunə haqqı yenidən avtomatik ödənilməklə növbəti istifadə imkanı təqdim olunur.
5.3. Xidmətə abunəlik Mobil Tətbiq vasitəsilə Abunəçi tərəfindən istənilən zaman deaktiv edilə bilər. Xidmət deaktiv edildikdən sonra növbəti abunəlik dövrü üçün abunə haqqı tutulmur.
5.4. Viktorinaya ilk dəfə qoşulan Abunəçiyə Sınaq Oyunu təqdim olunur. Eyni nömrə və ya eyni cihazla təkrar qoşulduqda Sınaq Oyunu yenidən təqdim edilmir. Sınaq Oyunu, Əsas Oyun və Əlavə Oyunların hər biri 15 sualdan ibarətdir. Hər Abunəlik Dövründə Abunəçiyə 1 Əsas Oyun və maksimum 4 Əlavə Oyun verilə bilər. Hər suala cavab vermək üçün 7 saniyə vaxt verilir. Vaxtında cavab verilmədikdə oyun başa çatır. Hər cavabdan sonra düzgün cavab abunəçiyə göstərilir. Abunəçi səhv cavab verdikdə oyun ərzində bir dəfə “Həyat” ipucundan istifadə edərək oyunu davam etdirə bilər. Bundan sonra yenidən səhv cavab verildikdə oyun bitir. Hər oyunda bir dəfə “50/50” ipucundan istifadə etmək mümkündür. Bu ipucu 6-cı suala qədər istifadə olunur və 4 cavabdan 2 səhv cavabı silir.
5.5. Əlavə Oyunlar abunəliyə daxil deyil və ayrıca ödənişlidir. Abunəçi hər abunəlik dövründə maksimum 4 Əlavə Oyunda iştirak edə bilər. Hər bir Əlavə Oyunun dəyəri Mobil Tətbiqdə göstərilir. Əlavə Oyunda iştirak etmək üçün Abunəçi Mobil Tətbiqdə müvafiq seçimi etməli və xidmətin birdəfəlik aktivləşdirilməsinə görə müəyyən edilmiş ödənişi həyata keçirməlidir.

5.6. Müvafiq mükafatların təhvil alınması üçün qaliblər Təşkilatçı tərəfindən məlumatlandırıldıqları tarixdən etibarən 30 təqvim günü ərzində Təşkilatçıya müraciət etməli və tələb olunan məlumatları təqdim etməlidirlər.
5.7. İştirakçı, qüvvədə olan qanunvericiliyin tələblərini və sosial şəbəkələrdən istifadə qaydalarını pozmamalı, əxlaq normalarına uyğun davranmalıdır. Müharibəni, zorakılığı və qəddarlığı, milli, irqi, sosial ədavəti, yaxud dözümsüzlüyü təbliğ edən, hər hansı şəxsin şərəf və ləyaqəti alçaldan, işgüzar nüfuzuna zərər vuran, əqli mülkiyyət hüquqlarını pozan, pornoqrafik, pirat və kontrafakt məzmunlu, reklam və ya anti-reklam səciyyəli yanaşma və davranış qadağandır. Təşkilatçı, davranış baxımından Viktorina tələblərinə cavab verməyən istənilən davranışa görə iştirakçını diskvalifikasiya etmək hüququna malikdir.

6. Mükafat.

6.1. Mükafat, Təşkilatçının öz mülahizəsinə əsasən müəyyən edilir və siyahısı aşağıda göstərilir. Mükafat zamanı təqdim edilən avadanlıqların (beləsi olarsa) qarantiya şərtləri ilə əlaqədar Təşkilatçı cavabdehlik daşımır.
6.2. Viktorina üzrə mükafatlar telekommunikasiya xidmətləri, internet paketləri, bonuslar, balans əlavələri, elektron sertifikatlar, cihazlar, hədiyyə kartları və ya Təşkilatçı tərəfindən müəyyən edilən digər mükafat növlərindən ibarət ola bilər.
6.3. Mükafat hər hansı bir formada nağdlaşdırıla və başqa mükafat ilə əvəz edilə bilməz.
6.4. Mükafatın alınması üçün qalib Təşkilatçı tərəfindən məlumatlandırıldığı tarixdən etibarən 30 təqvim günü ərzində müraciət etməlidir. Bu tarixə qədər müraciət etməmiş qaliblər mükafatdan imtina etmiş hesab edilir və bu tarixdən sonra edilmiş müraciətlər nəzərə alınmır.
6.5. Qalib həm Təşkilatçının sosial şəbəkələrdəki rəsmi hesabları, həm rəsmi internet saytı, həm də İştirakçının bilavasitə özünə şəxsi ismarıc vasitəsi ilə xəbər verilməklə məlumatlandırıla bilərlər.
6.6. Qalib özü barədə məlumatları (ad, soyad, ata adı, telefon nömrəsi, elektron poçt ünvanı, şəxsiyyət vəsiqəsinin məlumatları) onlara əvvəlcədən bildiriləcək üsulla Təşkilatçıya təqdim etməli və mükafatı alarkən şəxsiyyəti təsdiq edən sənədin əslini təqdim etməlidir.
6.7. İştirakçı tərəfindən təqdim edilmiş məlumatlar yanlış olduqda, təqdim edilmiş məlumatlar əsasında İştirakçı ilə əlaqə saxlamaq mümkün olmadıqda, qalib haqqında məlumatlar ilə şəxsi hesab məlumatları arasında aradan qaldırılması mümkün olmayan uyğunsuzluqlar olduğu təqdirdə Təşkilatçı mükafatı verməkdən imtina etmək hüququna malikdir və buna görə məsuliyyət daşımır.
6.8. Qalib mükafatdan imtina etdikdə və ya Təşkilatçı mükafatı verməkdən imtina etmək hüququndan istifadə etdikdə mükafat Təşkilatçının qərarı ilə başqa iştirakçıya verilə bilər və ya ümumiyyətlə verilməyə bilər.

7. Digər şərtlər.

7.1. Viktorina qaydaları barədə məlumatlandırma Təşkilatçının rəsmi İnternet saytı və ya sosial şəbəkələrdəki rəsmi hesabları vasitəsi ilə həyata keçirilə bilər.
7.2. İştirakçı bu Viktorinada iştirak etməklə hazırkı qaydalarla tam tanışlığını və onlarla razılığını, o cümlədən aşağıdakılara razılığını bildirmiş olur:

7.2.1. qalibin bu Qaydalarda müəyyən edilmiş şəkildə müəyyənləşdirilməsi;
7.2.2. müsabiqənin keçirilməsi zamanı hər hansı üçüncü şəxsin hüquqlarının İştirakçı tərəfindən pozulması halı olduqda Təşkilatçıya qarşı irəli sürülmüş tələblərin müstəqil şəkildə İştirakçı tərəfindən həll edilməli olması;
7.2.3. iştirakçı barədə məlumatların, o cümlədən Viktorina materiallarının Təşkilatçıya aid informasiya resurslarında və müxtəlif informasiya daşıyıcılarında Təşkilatçı tərəfindən sərbəst yerləşdirilməsi və yayılması;
7.2.4. Viktorina və nəticələri (qaliblər, verilən mükafatlar və s.) barədə məlumatlardan öz mülahizəsinə əsasən bütün üsullarla qeyri-müəyyən müddət ərzində istənilən yerdə istifadəyə müstəsna hüquqlar Təşkilatçıya məxsusdur.

7.3. İnternet bağlantısının olmaması, Mobil Tətbiqə daxil ola bilməmək və ya Təşkilatçıdan qaynaqlanmayan səbəblərə görə Abunəçi Viktorinada iştirak edə bilmədikdə, Təşkilatçı buna görə məsuliyyət daşımır. Abunəçi abunəliyini və Viktorina xidmətlərini Mobil Tətbiq vasitəsilə idarə edə, istədiyi vaxt abunəlikdən imtina edərək iştirakını dayandıra bilər.

7.4. Abunəçi 90 təqvim günü ərzində Viktorinada iştirak etmədikdə, Təşkilatçı istənilməyən tarifləşmənin qarşısını almaq və Abunəçinin maraqlarını qorumaq məqsədilə əvvəlcədən bildiriş göndərmədən onun abunəliyini ləğv edə bilər.
7.5. Abunəçinin eyni cihazda müxtəlif nömrələrlə Viktorinada iştirak etməsi qadağandır. Həmçinin Abunəçi sualları, cavabları, şəxsi oyun təcrübəsini və digər iştirakçıların nəticələrinə təsir edə biləcək məlumatları internet saytlarında, forumlarda və ya açıq mənbələrdə paylaşmaq qadağandır.
7.6. Təşkilatçı qalib gəlmək üçün vicdansızcasına davranan İştirakçıları Viktorinadan kənarlaşdırmaq hüququna malikdir.
7.7. İştirakçı tərəfindən bu Qaydaların hər hansı bir bəndinin pozulması Təşkilatçıya mükafat ödəməkdən imtina etmək hüququ verir.
7.8. Təşkilatçı rəsmi İnternet saytı və ya sosial şəbəkələrdəki rəsmi hesabları vasitəsi ilə Viktorinanın keçirilmə qaydalarında dəyişiklik etmək hüququna malikdir.